**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi**
**Enerji Gömrük İdarəsi**

**İctimai şuranın iclasının**
**Protokolu**

**11 yanvar 2017-cı il № 01** **Bakı şəhəri**

**Sədr:** **Vüsal Əbilov**
**Katib:** **Ruslan Hüseynov**

**İştirak etdilər:** İdarənin rəis müavinləri Anar Həsənov, Gömrük rəsmiləşdirilməsi və nəzarəti şöbəsinin rəisi Ruslan Hüseynov, maliyyə-tarif şöbəsinin rəisi Rəfail Niftəliyev, Fəaliyyətin qiymətləndirilməsi bölməsinin rəisi Kamil Abuşov, Gömrük hüquqpozmalarına qarşı mübarizə şöbəsinin böyük təhqiqatçısı Elmar Məmmədov.

Enerji Gömrük İdarəsinə gömrük rəsmiləşdirilməsi ilə bağlı müraciət edən biznes subyektlərinin nümayəndələri: DNŞ MİƏİ – Şahin Əhmədov, Məişət Maye Qaz ASC – Vilayət Əliyev, Heydər Əliyev Adına Neft Emalı zavodu – Mübariz Məmmədov, Murad LTD – Ramin Səfərov, Asfil MMC – İmran Qocayev, El ve Em MMC – Abdulla Əzizov, Lukoyl QSC – Emil İbrahimov, ASV İnternational – Ceyhun İbrahimov, Petrokhem – Əli Bünyatov. fiziki şəxslər – Namiq Nağıyev, Sultan Məmmədov, Qılıc Ələkbərov, Rəsul Kərimov, İlkin Zeynalov,

**Gündəlikdə duran məsələlər:**

1. Gömrük xidməti ilə biznes subyektlərindən ibarət İctimai şuranın vəzifələri haqqında.
2. İctimai şuranın iş planı və qrafiki haqqında.

**Eşidildi:**

1. **Vüsal Əbilov** gündəlikdə ilk olan məsələ haqqında məlumatla çıxış edərək bildirdi ki, "Gömrük xidməti ilə biznes subyektlərinin nümayəndələrindən ibarət İctimai şura"lar "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrasını həyata keçirmək məqsədilə yaradlır və gömrük orqanları ilə xarici iqtisadi əlaqələr iştirakçıları arasında əməkdaşlığın genişlənməsi məqsədini daşıyır. Gömrük qanunvericiliyinin tələblərinin, o cümlədən xarici əlaqələr iştirakçılarının beynəlxalq ticarət sahəsində öhdəliklərinin yerinə yetirilməsinin təmin edilməsi, qanunvericiliyə edilmiş dəyişikliklərin izah və şərh edilməsi, qaldırılan məsələlərlə bağlı müzakirələrin aparılması, biznes

subyektlərinin təkliflərinin həll olunması üçün Dövlət Gömrük Komitəsinə məruzə olunması İctimai şuranın əsas vəzifələridir. Bu görüşlərdə qəbul edəcəyimiz qərarlar xarici iqtisadi fəaliyyətin inkişafına, mal dövriyəsinin sürətlənməsinə, gömrük tənzimlənməsinin həyata keçirilməsi mexanizminin təkmilləşdirilməsinə, xarici iqtisadi fəaliyyətin iştirakçıları ilə gömrük orqanları arasında yaranan problemlərin aradan qaldırılmasına, iş adamları və biznes strukturları arasında gömrük işi sahəsində hüquq mədəniyyətinin artırılmasına yardım etməlidir. Bu gün ilk iclasımızın olduğunu nəzərə alaraq istərdik ki, biznes strukturlarının nümayəndələri daha çox qarşılaşdıqları problemləri bildirsinlər. Bizim əməkdaşlar imkan daxilində bu məsələlərlə bağlı izahat verəcəklər. Bizdən asılı olmayan məsələlər isə qeydə alınacaq və növbəti görüşdə kimi bu sualları cavablandırmağa çalışacayıq.

**Çıxış etdilər:**

**-A.Əzizov**: Bildiyiniz kimi, bank sistemində nəğd ödənişlərə görə əlavə vəsait tutulur. Bunu aradan qaldırmaq üçün ödənişləri əvvəlcədən etdiyimizə baxmayaraq, dəfələrlə mal rəsmiləşdirilməsi zamanı vəsaitin gömrük orqanının hesabına keçmədiyi məlum olmuşdur. Həmçinin bəyannamələr üçün "Azterminalkompleks" birliyinin hesabına ödədiyimiz vəsaitdən də bir sıra hallarda, xüsusən qeyri iş günlərində naməlum səbəblərdən istifadə edə bilmirik. Bu problemlərin aradan qaldırılması yaxşı olardı.

**-R.Niftəliyev**: Qeyd olunan problemlər gömrük orqanının fəaliyyəti ilə bağlı deyil. Lakin bankda ödəniş etdilkdən sonra ödəniş tapşırığını bizə çatdırsanız, bizim yerli xəzinədarlıq idarəsinin vasitəsilə ödənilmiş vəsaitin gömrük orqanının hesabına keçirilməsinin sürətlənməsinə kömək edə bilərik. Həmçinin gömrük bəyannamələri üçün "Azterminalkompleks" birliyinə köçürdüyünüz vəsaitlə bağlı da eyni kömək göstərilə bilər. Eyni zamanda, xüsusən müntəzəm işləyən biznes subyektləri, gömrük rəsmiləşdirilməsi üçün ödənişləri, bankləngimələrini nəzərə alaraq həyata keçirmələri məqsədəuyğun olardı.

**Ş.Əhmədov**: Güzdək gömrük postunda dəmir yolu vaqonlarına yüklənərək yola salınan malların natamam gömrük bəyannaməlri ilə rəsmiləşdirilməsinin elə həmin postda həyata keçirilməsi həm vaxta qənaət olunmasına şərait yaradardı, həm də uzaq məsafədən sənədlərin idarəyə gətirilməsi və geri qaytarılması zamanı lazımsız məsrəflərin qarşısını alardı.

**-R.Hüseynov:** Qeyd olunan rəsmiləşmə zamanı eyni müqavilə ilə eyni malların dəmir yolu vaqonları ilə göndərilməsi yalnız Güzdək gömrük postunda deyil həm də digər stansiyalardan həyata keçirilir. Bu zaman malların müqavilələr üzrə kvotasına nəzarət etmək mümkün olmur. Bu istiqamətdə işlər aparılır. Texniki imkan olduqda yəqin ki, bu məsələyə baxmaq mümkün olacaq.

**-V.Əbilov:** Eyni zamanda Güzdək gömrük postunda əməkdaşlar üçün normal iş şəraiti yaradılmır. Qeyd olunan postun yerləşdiyi ərazinin Dövlət Neft şirkətinə məxsus olduğunu nəzərə alaraq ilk növbədə əməkdaşlar üçün müvafiq iş şəraiti yaradılmalıdır.

**-A.Həsənov:** Qeyd etmək istərdim ki, xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi üçün əsas amil gömrük orqanlarına təqdim olunan sənədlərin düzgün tərtib olunmasıdır. Gömrük rəsmiləşdirilməsi zamanı yubanmalar bir çox hallarda bu sənədlərdə olan çatışmazlıqlardan qaynaqlanır. Həmçinin gömrük rəsmiləşdirilməsi üçün sənədlərin vaxtında gömrük orqanına təqdim olunması da prosedurun tez başa çatmasına səbəb olacaq.

**Eşidildi:**

**2. Anar Həsənov** gündəlikdə olan ikinci məsələ ilə bağlı çıxış edərək bildirdi ki, Enerji Gömrük İdarəsinin ixtisaslaşmış gömrük orqanı olduğunu və bura müraciət edən biznes subyektlərinin sayının məhdud olmasını nəzərə alaraq təklif edirik ki, ictimai şuranın iclasları 45 gündən bir keçirilsinlər. Biznes subyektlərinin nümayəndələrindən xahiş edirik ki, növbəti iclasda müzakirə olunmaq üçün onları narahat edən məsələlər barədə yazılı və ya şifahi formada idarənin müvafiq strukturlarına məlumat versinlər. Həmçinin idarənin struktur bölmələri növbəti iclasa kimi, biznes strukturları ilə münasibıtdə qarşıya çıxan problemlərin həlli üçün məsələləri müzakirəyə çıxarmağa hazırlasınlar. Növbəti iclasa ən azl 10 gün qalmış biznes strukturlarının nümayəndələri İctimai şuranın iclasının keçiriləcəyi və onun gündəliyi barəsində məlumatlandırılsınlar.

**Qərara alındı:**

1. Enerji Gömrük İdarəsində yaradılmış İctimai şuranın iclasları hər 45 gündən bir keçirilsin.
2. İclasın keçirilməsinə ən azı 10 gün qalmış biznes subyektlərinin nümayəndələri iclasın tarixi və gündəliyi barəsində məlumatlandırılsınlar.

**Sədr** **Vüsal Əbilov**

**Katib** **Ruslan Hüseynov**